**ZƏMİNƏ XINALI**

# ARTİLLERİYANIN ALLAHI

*(Poema)*

***Tale yolu Dünya Hərb tarixinə qızıl hərflərlə həkk olunmuş Əliağa Şıxlinskinin ruhu qarşısında mənəvi övladlıq borcumu ödəyirəm***

***Z.Xınalı***

Bakı-2016

Ön sözün müəllifi: **Nizami Cəfərov**
*AMEA-nın müxbir üzvü, filologiya elmlər dokdoru, professor*

Redaktor: **Şükufə İsmayılzadə**

Rəyçi: **Ülvi Şıxlinski**
istefada olan polkovnik -leytenant

**Zəminə Xınalı (Zəminə Məhəmməd qızı Bayramova) «Artilleriyanın Allahı» ( poema)**
«ORXAN» NPŞ MMC, Bakı, 2016, 136 səh.

*«Artilleriyanın Allahı» poeması Azərbaycanın Əməkdar Mədəniyyət işçisi, hərbçi şairə Zəminə Xınalının oxucularla növbəti görüşüdür. «Azərbaycan generalları» silsiləsindən olan bu əsər Azərbaycanın hərb tarixində silinməz izlər qoymuş, «Artilleriyanın Allahı» titulu qazanmış general-leytenant Əliağa Şıxlınskinin keşməkeşli həyatına, hərb tarixində göstərdiyi şücaətlərə həsr olunmuşdur.*

*Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

*ISBN 978-9952-8284-8-1*

*©Z. Xınalı, 2016*

# TARİXİ ŞƏXSİYYƏTƏ BÖYÜK EHTİRAM...

Əməkdar Mədəniyyət işçisi Zəminə Xınalının "Artileriyanın Allahı" poeması tarixi-vətənpərvərlik mövzusunda qələmə aldığı maraqlı əsərlərindən biridir. Poema elə bir böyük şəxsiyyətə həsr olunmuşdur ki, onun haqqında gərək indiyə qədər cild-cild kitablar yazılmış olaydı...Ancaq dahi hərb xadiminin özünün taleyi, yaxud yaşadığı ziddiyyətli dövrlər imkan verməmişdir ki, "Artilleriya Allahı" milli –ictimai fikirdə layiqincə qiymətləndirilsin. Bununla belə dünya hərb tarixində Əliağa Şıxlınski adı ehtiramla çəkilir... Və həmin şöhrətli ad çəkiləndə yada ilk növbədə artıq modelləşmiş ifadələr düşür :"Port-Artur" ,"Şıxlinski üçbucağı" ,"Şıxlinski formulu"...

Poemanın əsas uğuru ondadır ki, müəllif özünün və millətinin qəhrəmanını bütün tərcümeyi-halı ilə təqdim etməyə, tale və həyat detallarını verməyə çalışır... Və təfsilata varmaqla qəhrəmanın obrazını, tam miqyası, genişliyi ilə yaradır...

Əliağa Şıxlinskinin doğulub boya –başa çatdığı Qazax mahalının vətənpərvər təbiəti,ziyalı ən məşhur qohumlarinin gənc istedada arxa durması, Əliağanın zəhmətkeşliyi, ona göstərilən etimadı inamla( və qeyri-adi intellektlə) doğrultması,hərbi məktəbi qurtardıqdan sonra İmperiya ordusunda uğurla qulluq etməsi, artilleriya sahəsində virtioz bir mütəxəssis olması...nəhayət Port –Arturdakı qəhrəmanlığı axıcı bir poetik təkhiyə ilə təqdim olunur. Zəminə Xınalı "Artilleriya Allahı"nı, "Port-Artur qəhrəmanı"nı yalnız müqtədir hərbçi kimi yox, həm də humanist, təvazökar, ziyalı şəxsiyyət olaraq da göstərir. Onun dədə- babalardan gələn milli xarakterini, mənliyini mənəviyyatını konkret detallarla təsvir edir. Generalın doğulduğu yurda bağlılığı, həyat yoldaşı Nigar xanıma sevgisi, ehtiramı, müstəqil Azərbaycana həm praktik hərbçi, həm hərbçi-pedaqoq, həm də ümumən milli ziyalı olaraq xidməti barəsində bəhs edərək müəllif, tamamilə təbii olaraq "daha cox informasiya"dan" "daha cox emosiyaya keçir... Halbuki çinlilərlə, yaponlarla olan döyüş səhnələri təsvir olunarkən Zəminə Xınalının hərbçiliyi şairliyini az qalır ki, üstələsin. Və bu cür məqamlarda poemanın fakturasında coxlu tarixi,eləcə də hərbi-texnoloji məlumatların verilməsi və əsərin mövzusu ilə

yanaşı, müəllifin hərbi işi yaxşı bilməsindən irəli gəlir.Savaşdan, döyüşdən, oddan- alovdan keşən Əliağa Şixlinskinin ömür yolunu dönə-dönə varaqlayan şairə onun hərtərəfli bədii obrazını yaradır.

"Artilleriya Allahı"nın bir məziyyəti qəhrəmanın tərcümeyi- halına, taleyinə dərindən bələd olan bir müəllif tərəfindən qələmə alınmasıdırsa, ikinci məzıyyəti müəlifin qəhrəmana sonsuz sevgisi, onun tarixi şəxsiyyətinə yüksək ehtiramıdır. Bütün ömrünü hərbi həyata bağlayan, qarabağ savaşlarında canını fəda edən həyat yoldaşının hərbi peşəsini uğurla davam etdirən Z. Xınalının yaradıcılığına nəzər salanda görürük ki, onun amalı yalnız gənc nəsli hərbi vətənpərvərlik ruhunda təbliğ etmək, vətən sevgisini aşılatmaq, vətən oğullarını hərbi mundirdə görmək istəyində olub. Elə ona görə də onun oğulları da Vətən keşiyində məğrur dayanan zabitlərdəndır. Azərbaycanda hərbi marşlar müəllifi kimi tanınan şairə bütün hərbi hissələrdə, ali hərbi məktəblərdə bütün kursantların anası kimi ən ali rütbəyə, ən böyük ada layiq görülüb. Əliağa Şıxlinskinin həyat yoldaşı Nigar xanımın ömür yoluna nəzər salsaq görərik ki, Zəminə Xınalı da Nigar xanim kimi vətənpərvər, fədakar Azərbaycan qadınıdır,

Azərbaycan əsgəridir. Hərbi həyatın nə qədər çətin, nə qədər məsuliyyətli,nə qədər şərəfli olduğundan və bu peşəyə olan vurğunluğundan şairə vətənpərvərlik ruhunda yazıb-yaratmaqla hərb tarixində dərin iz qoymuş generallarin həyat yolundan bəhs edən poemaları qələmə alması da təbiidir.Onun yazdığı poemalardan biri də iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanov haqqında Qəhrəman Həzi poemasında əsas məqsəd də vətənpərvərliyin təbligatı, hərb tarixində dərin iz qoymuş Azərbaycan oğullarına olan dərin ehtiramidir.

Və heç şübhəsiz ki, Zəminə Xınalının bu əsəri Azərbaycanın dahi hərb xadimini bütün tərəflərə, miqyası ilə tanıtmaq, gənc nəslə sevdirmək sahəsində görülən ən ugurlu işlərindən biridir...

*Nizami Cəfərov*
*Millət Vəkili,AMEA-nin müxbir üzvü,*
*Professor,Azərbaycan Atatürk Mərkəzinin rəhbəri.*

# ARTİLLERİYANIN ALLAHI

Qazax mahalının eli-obası,
Olub ərənlərin yurdu-yuvası.
Dərdə dərman olan , dağın havası
İgidlər yetirib, mərdlər yetirib.

Burda qaçaqlar da, qocaq da olub,
Burda pir yerləri, ocaq da olub.
Burda silah-sursat, yaraq da olub,
Düşmənə min bəla dərdlər yetirib.

Şeirlə-sənətlə yaşayanların,
Ürəyi döyünüb, daim Vətənlə.
Döyüş meydanından uğurla çıxıb,
Üz-üzə gələndə, mənfur düşmənlə.

Dəli Kür laylası, «Cəngi» havası,
Bu elin qanına-canına hopub.
Pəhləvan cüssəli  nər nərəsindən,
Dağlar lərzələnib, qayalar qopub.



Burda babaların ayaq izləri,
Vətən daşlarına həkk olunubdu.
Onlardan əmanət qalan yurd yeri,
Burda göz bəbəyi tək qorunulubdu.

Burda müqəddəsdir, Vətən torpağı,
Burda keçmişlərin gəlir  sorağı.
Burda qalaq-qalaq əsrin varağı
Bu yurda deyirlər mərdlər oylağı.

Burda and yeridir, Vətən torpağı,
Burda yurd yeridir, Vətən torpağı.
Burda mərd yeridir, Vətən torpağı
Pirdir, səcdəgahdır, Vətən torpağı.

Qartallar oylağı, igidlər yurdu,
Dağlarda marallar boynunu burdu,
Təbiət adına toy-büsat qurdu,
Çeşmə tək durusan, Vətən torpağı.

Qaynar bulaqların anası sənsən,
Çağlayan çayların laylası sənsən,
Ulduzun, ayın da aynası sənsən
Gözümün nurusan, Vətən torpağı.

Neçə döyüşlərdən uğurla çıxdın,
Düşmənin damını-daşını yıxdın.
Qələbə çalanın əlini sıxdın,
Əzəlsən, ulusan, Vətən torpağı.

Babaların məzarları,
Yurdumuza səngər olub.
Vətənini sevən hər kəs,
Vətəninə əsgər olub.

Oğul düşmən çəpəridir
Oğulları var olsun.
Dünya xain düşmənlərə
Ömrü boyu dar olsun.





Qoy hər evdən oğul səsi
Oğul nəfəsi gəlsin.
Gözəl qızlar-gəlinlər
Yar yolunu gözləsin.

Uca boylu, nər biləkli,
Oğullara güvənək.
Vətənin keşiyində
Oğullar hər an gərək.

Burda Səməd Vurğun,
Vaqif, Vidadi,
Dünyaya səs salıb
onların adı.
Alim, təyyarəçi,
sərkərdəsiylə
Bu yurdu dünyanın
özü tanıdı.
Dahilər yurdudur
Qazax mahalı.

Elmdir-sənətdir
dövləti-varı.
Burda oğulların
bircə amalı;
Hər biri Vətənə əsgər olmalı.

Dağların qoynunda
səngər salınıb.
Düşməndən qisas da
burda alınıb.
«İpək Yolu» özü burdan
salınıb.
Əsrin yaddaşıdır,
Qazax mahalı.

Söz-sözə calanır, bu yurd
yerində,
Mahnılar yaranır,
bu yurd yerində,
Ocaqlar gur yanır, bu yurd yerində
Əsrin daş-qaşıdır,
Qazax mahalı.
Günəş nur paylayır,
torpaq canlanır,





Şərəfi, şöhrəti, adı səs salır,

Ruhlar təzələnir, qəlb nəfəs alır,

Əsrin qalasıdır,  Qazax mahalı.

Bu yurda şairlər
yurdu  deyiblər,
Qeyrət simvoludur,
ordu deyiblər,
Düşmənə göz dağı
oldu deyiblər,
Əsrin yaşıdıdır,
Qazax mahalı.

Burda qeyrət ilə
hünər əkizdir.
Burda yurd- yuva da
candan əzizdir,
Burda Vətən özü
qəlb aynasıdır.
Bura Odlar yurdu
Qərb qapısıdır.

Sərkərdə, general, təyyarəçilər,

Bu yurdun qeyrətli

oğullarıdır.

Ömrü örnək olan generallardan,

Şıxlinski bu yurdun
şah vüqarıdır,
Burda çiçək açır
çöllər-çəmənlər
Ətrinə bürünür
gül-yasəmənlər.
At çapır döyüşür,
igid ərənlər.
Öyünüb fəxr edir
qızlar-gəlinlər.
Meşələr, oylaqlar
o, buz bulaqlar
İgid ərənlərin
yurd yeri olub.
Əsrlər boyunca
Qazax mahalı
Müqəddəs sayılıb,
mərd yeri olub.
Bir səngər olubdur,
Avey dağları
Aləmə yayılıb,
səsi-sorağı.
Qartallar yuvası,
ərən oylağı
Söz ilə qılıncın sərt
yeri olub.





Həm şeir, həm şair
sənət dünyalı,
Əsrin yaddaşıdır
Qazax mahalı.
Dilboz atlarının
qızılı -nalı,
Namərd düşmənlərə
dərd yeri olub.

***

Bar ağacı adlanır,
Hər bir insanın özü.
Əliağanın könlündə
Dilində Vətən sözü.
Orta məktəb zamanı
Tərif eyləyirdilər.
Müəllimləri hər zaman
Onu fərəhlə süzüb
Hərbçi deyirdilər.

Qazax qəzasında
dünyaya gələn
Əliağa yurduna
Vətən deyirdi.

Torpağa, daşa da
vurğun idi o.
Elin-obasını
qəlbən sevirdi.
Bahar bayramında
anadan olub,
Uşaqlıq vaxtından
müdrik doğulub,
Vətən məhəbbəti, el məhəbbəti.
Canına, qanına
qəlbinə hopub.
Hələ uşaq ikən, cəld  çevik idi,
Bütün uşaqlardan seçilirdi o.
Qılınc oynatmağı, at yarışması,
İdman  yarışları keçirirdi o.
Oğlunun boyuna baxanda ata
Xəyallar qonağı olardı onun.
Oğlunun gələcək günündə hətta
Qəlbinə arzular dolardı onun.
Atanın ən böyük arzusu idi
Övladı hərbiçi-general olsun.





Görüb çiynindəki  zərli paqonu
Könlü sevinc ilə,  fərəhlə dolsun.
Xəyal qanadında uçub Əliağa,
Vətən göylərində qanad açırdı.
Uşaqlıq  dövrünə əlvida deyib,
Gənclik illərinə  tərəf qaçırdı.
Həyatda yeganə arzusu vardı,
Hərbiçi olmağı arzulayırdı.
Əliağa dağ oğlu, dağlar oğluydu,
Dağların  boyundan
vüqarlanırdı.
Kənddə yaşayırdı, ata-anası,
Var idi, şəhərdə  Mirzə dayısı.
Himayə eyləsə yaxşı olardı,
Belə bir qərara gəldi, hamısı.
Atanın-ananın nəsihətilə,
Əliağa Tiflisə gəldi həmin gün,
Ağılı, kamalı, fərasətilə
Tutmuşdu nəbzini zamanın-dövrün.
Mirzə Qayıbovun dərin örnəyi,
Əliağaya yaxşı təsir göstərdi.
Şəxsi həyatında hərbi həyatda,

Əliağa hər zaman öndə gedirdi.
Doktor Qayıbovun dünyagörüşü,
Sanki ondan ötrü həyat dərsiydi.
Onun arzuları coşub-daşırdı,
Vətən məhəbbəti gur nəfəsiydi.
Bu cavan oğlana, gənc hərbçiyə,
Məsləhət verərdi, yol göstərərdi.
Onun nəsihəti, onun örnəyi,
Ömür yollarında, ona gərəkdi.

12 yaşı olanda
Tiflis gimnaziyasın
sinfinə daxil oldu.
1875-in
ilk payız aylarında
gimnaziyaya Əliağa
çox ürəklə gedirdi.
Biliyi savadıyla
Şagirdlərdən hər zaman
Əliağa fərqlənirdi
Rus dilində çox dəqiq
Səlist danışırdı o.





Yaxşı oxuduğundan
Müəllimlər, direktor onu
Sinif yoldaşları da
Ürəkdən təbrik etdi.
Müdriyyət tərəfindən
Təqdirnamə alaraq
Yuxarı sinfə keçdi.

1876-da
Əliağa Şıxlinski
hərbi gimnaziyada
birinci sinfə keçdi.
Həyatın sərt üzündən
Acı aldı Əliağa
İdman dərsində o,
Qaçanda yıxılaraq
Ayağını sındırdı.
Yeni dərs ilində o
Dərslərindən qalırdı.
Gecə-gündüz oxuyub
Əliağa dərslərə,
Ürəklə çalışırdı.

Oktyabr ayında
Dərsə başladı bəli.
Onun məqsədi vardı
Oxumaqda irəli!
Birinci semestrdə
Birinci yeri tutdu.
Bütün semestrlərdə
Əliağa hamıdan
Çox fərqli oxuyurdu.
İki metr hündürdən
Çəkilmiş ipin üstdən
Uğurla atlanırdı.
Şagirdlərin hər birin
Çox arxada qoyurdu.
Sevimli müəllimləri
Vladimir Karqanov
İliç Monastıpsevdə
Onun uğurlarına
Ürəkdən şadlanırdı.
Əliağa o, qədər
Gülərüz mehribandı.
Sinif yoldaşlaryıla





Səmimi dolanandı.
Dostluq hissi o qədər
Güclü idi qəlbində
Bu xoş  xasiyyətilə
Olardı irəlidə.
İmtahanı qurtarıb,
Kəndə gələrdi, hər yay.
Ona qucaq açardı
Uca dağlar, al yaylaq.
Şah Yəmən xanımdı, onun anası
Hərbçi anası, sular sonası.
Duydu ana qəlbi, oğlu Əliağa,
Mükəmməl hərbçi general olası.
Həyatın ən ağır zərbəsin alan,
Qayıbov əziyyət-əzab çəkmişdi.
Qohumu-qardaşı, dostu-yoldaşı
Elin-obasını qəlbən sevmişdi.
Onun uşaqlıqda ata-anası,
Vaxtsız köç etmişdi, əzab çəkmişdi.
Ayların-illərin ağrı-acısı
Onu nə sındıra, əyə bilmişdi.
Qori şəhərində seminariyada,

Müsəlman şöbəsi təsis edildi.
Orada Qayıbov nüfuz sahibi,
Həmin seminariyada dərs də deyirdi.
Hüseyn Əfəndi çalışırdı ki,
Qadınlar çadranı atıb oxusun.
Oxuya bilməyən qadınlar isə
Oturub evində xalı toxusun.
O, öz millətini çox sevirdisə,
Özgə millətlərə hörmət edirdi.
Dostları var idi, ruslar, gürcülər,
Onların evinə qonaq gedirdi.
Əliağa gördü ki, Mirzə Hüseyn
Ona bu yollarda yol göstərirdi.
Hərdən də çətinə, dara düşəndə
Nəsihət, məsləhət, söz istəyirdi.
Gimnaziya təhsili iki illikdi,
Yeddi ay ərzində başa vurdu o.
Vətənə əbədi vətəndaş olub,
Könlündə nə qədər arzu  qurdu, o.
Dayısı İbrahim Əfəndi ona,
Uşaqlıq dövründən sahib durmuşdu.
Qayıbov təhsilin başa vurandan





Sonra da Qafqazda «müfti» olmuşdu.
Xarici dilləri, doğma dilini,
Qayıbov hamıdan yaxşı bilirdi.
Elmin sirlərini, hərb tarixini
Əliağaya hər zaman  o, örgədirdi.

1876-nın avqust ayında
Hərbi gimnaziyaya
daxil oldu o.
Bütün semestrlər
başa çatanda
əlaçı kursant tək
elan oldu o,
Çevik qaçışıyla
idmanda hətta,
Əliağa hər zaman
birinci oldu.
Əcnəbi dillərin
qrammatikasın
Dərslərin mükəmməl
öyrənirdi o.
Yaxşı oxumağın mühüm sirlərin

Kursant dostlarına
öyrədirdi o,
1883-ün
sentyabr ayında
Peterburqa yerləşən
Topçuluq məktəbinə
Əliağa daxil oldu.
Kursant vaxtı Əliağa
İdmanla məşğul oldu.
Yarışlarda hər zaman
Yaxşı idmançı oldu.
Atçılıq yarışında
Yenə birinci oldu.
Onun qarşısında tək
bircə amalı vardı.
Dərslərini hər zaman
yaxşı oxumalıydı.
O, zamanın ən məşhur
Müəllimlər müəllimiydi.
Asuda vaxtlarında
Elmi kitabxanalarda,
İxtisas kitabların





Arayıb, axtarırdı.
Lev Lvoviç Kirpiçev
Hərbi elmi termindən
Topçuluqdan bəhs edən
Gözəl kitab yazmışdı.
Əliağa bu kitabı
Öz puluyla almışdı.
Hərbin bütün sirləri
kitabda yazılmışdı.
Əliağa demək olar
məşhur müəllimlərdən;
-Qodolin, Mayevskidən,
Fyodorov, Usovdan
Təcrübə toplamışdı.
Elmə dair qeydləri
Dəftərinə yazmışdı.
Məşğələlər zamanı,
Mühazirə zamanı,
Əliağa hər zaman
Uğurlar qazanmışdı.
Səhra topları haqda
Professor Sezarın

Qarnizonlar haqqında
kitabın oxumuşdu.
Ona görə Əliağa
Çox savadlı olmuşdu.



1886-da
Gənc Əliağa məktəbi
Başa vurub bitirdi.
Diplomilə yanaşı
Mükafatlar qazandı.
Bax beləcə Əliağa
Vətənin keşiyinə
Zabit kimi yollandı.
Xidmətin ilk ilində
Komanda təlimində.
Əliağa Şıxlinski
Oldu birinci yerdə.
Bu beş ilin ərzində
Rəis , rəhbər oldu o.
Öz işi əməlilə,
Dildə əzbər oldu o.
Zabitlik xidmətində



Uğurlar qazandı o.
Nədənsə də  bu illər.
Akademik təhsilə
Bir qədər yubandı o.
Biliyi bacarığı
Ona imkan verdi ki,
Həyatda öz yerini
Tapa bilsin Əliağa.
Topçu briqadanın
bütün şəxsi heyəti
Onun bacarığına
Nizam-intizamına
Heyran olduğu üçün
Dərin hörmət edirdi.
Hər zaman öndə idi
Əliağa Şıxlınski.

***

Xidmətin ilk ilində
Əliağa Şıxlınski
Təlim komandasına
Müəllim təyin edildi.
Yenə də işlərində

Əliağa birinciydi.
Bu illər ərzində o,
Böyük komandanlığın
komandiri oldu o.

***

1896-da…
Topçuların rəisi
General Baumqarten
Briqada komandiri
Knyaz Ximşlyevə
Qürurla söylədi ki,
Əliağa ən mükəmməl
Çox vicdanlı zabitdir.
Bu işinə görə o.
Təşəkkürə layiqdir.

***

Knyaz Amilaxvari
Əliağaya deyir ki,
Sizdən  xahiş edirəm,
Ali rəislər üçün
Düzəldilən törənə
Atınızı çıxardın.





Gümüşü rəngdə  atın
Sorağını alanlar,
Törənə gələcəklər.
Top atlarından fərqli,
Bu bayram günlərində
Gümüşü atınızı
Hamısı görəcəklər.

***

39-cu topçu
Briqadasında
Cəsur topçu Əliağa
Stanislav və Anna
Ordenlərini aldı.
Tarixin yaddaşında
Sərkərdə tək o qaldı.
1895-də
Qafqaz dairəsində o,
Təlimlərə başladı.
Batareya və vzvod
Komandası üçün o,
Mühüm tapşırıq aldı.
Hər dəfə top təlimi

Uğurla başa çatdı.
Əliağanın dəstəsi
Sağ cinahda təlimdə
Bir piyada alayın
Sərrast hədəfə aldı.
Bütün atışlarda o,
Hədəfləri vururdu.
Atış vaxtı Əliağa
Birinci yer  tuturdu.
Nişan xəttini hətta
Yüksəklik bucağıyla
Nişangah üzrə deyil,
Kvadrat üzrə vurur.
Onun komandası da
Həmişə öndə durur.
İstər təlimdə olsun,
İstər hərbi hissədə,
Ən çətin vəziyyətdən,
Asanlıqla çıxırdı.
Onun  ağlı, zəkası
Fərasəti- qüdrəti
köməyinə çatırdı.





Təlim meydanlarında
Məşqləri qurtarsa da,
Piyada və süvari
Dəstəsilə Əliağa
Əlavə dərs keçirdi.
Manevrlər zamanı
Podpolkovnik Belıy da,
Kapitan Tacalov da,
Öz topçu dəstəsilə
çox geridə qaldılar.
Əliağa Şıxlınskinin
Bütün topçu dəstəsi
Əla qiymət aldılar.
Yenə onun dəstəsi
Birincilik aldılar.
Təlimlər zamanı dərədən-dağdan
Dəli dağ çayından keçdilər onlar.
İstehkam qurmağa sərfəli idi,
Meşədə meydança seçdilər onlar.
Bütün əsgərləri sıraya düzüb,
Təlimin gedişi haqda danışdı.
Topçu dəstələri hərbin sirrini,

Hər biri öyrənmək üçün çalışdı.
Yalandan heç kimi tərif etməzdi,
Həqiqət, düzgünlük axtarırdı o.
Praktik dərsləri bilməyənləri,
Yenidən təlimdə saxlayırdı o.
Əsgər yeməyinin dadlı ləzzətli
Olması çox zaman düşündürürdü.
Bir əsgər var idi yemək zamanı
Lətifə söyləyib hey güldürürdü.
Xidmət;- xidmət kimi
yeri var onun.
Dostluğun özünün
ayrı yeri var.
Vətən keşiyində dayananlardan
Bütün millətlərin
hər birindən var.
Əgər briqadaya
Gəlsəydi təftiş
Bütün qaydasında
Olardı hər iş.
Onun üstünlüyü,
Həm düzgünlüyü





Komandan önündə
elan olunur.
Xidməti dövründə Əliağaya
Təşəkkür olunur.
Fəxri Fərmanlar ilə,
Hər an təltif olunur.
Xidmətində hər zaman
Nizam-intizam vardı.
Elə ona görə də
Çoxlu orden medalla
O, təltif olunardı.
Düşərgədə Əliağa
Təlimə başlamışdı.
Sağ cinahda piyada
dəstəsi dayanmışdı.
Əliağa atışda
hədəfə aldığını
Yerindəcə vurmuşdu.
İkinci tapşırıqda
Yenə öndə durmuşdu.
Asudə vaxtında cənab general
Qumar oynamadı, içki içmədi.

Ayların illərin qədrini bildi
Ömürü mənasız, boş da keçmədi.

İdmanla məşğuldu, vaxtı olanda
Atın qulluğunda durardı özü.
Heç kimlə heç zaman mərc tutmamışdı.
Yarışda hamını udardı özü.

Səyahət eyləmək istəyirdi o,
Bəlkə də bir dəvət gözləyirdi o.
Havr  şəhərində sərgilərə o,
Gəmiylə gəzməyi istəyirdi o.

Qismətdə yox imiş, səyahət  etmək
Zabaykal diviziya- batalyonuna
Getmək əmirini aldı Əliağa,
Qisməti yazılıb, demə uzağa.

Çində başlamışdı üsyanlar artıq
Sibirə qatarla on günə çatdı.
Söyləyir, Əliağa xatirələrdə
İrkutskidən gəmiylə Nerçinskə çatdı.





Bu yürüş, bu savaş dinc əhalinin
Gününü qaradan, qara etmişdi.
Onun həmyerlisi Mehmandarov da
Xüsusi əmrlə o, da gəlmişdi.

İyunun əvvəli yürüş başladı
Piyada hissələr göndərilmişdi.
Dəstəyə polkovnik Şvilin gəlib,
Komandir olmağa səy göstərmişdi.

Şərqi Çin yolları söküldüyündən
Maxoja çatdılar Amur çayıyla.
Çinli qoşunların silahlıları-
Atəş açırdılar onlar sırayla.

Atəşə atəşlə cavab verməyə
Əliağa son qərar vermişdi artıq.
Meydandan qaçanda  çinli əsgərlər
Neçəsin torpağa sərmişdi artıq.

Şəhər boşalmışdı, evlər boş idi
Kəndlərin birində gecələdilər.
İqnatyev körfəzi sahillərində
Atlılar sırayla irəlilədilər.

Bu döyüş, bu savaş qanlı-qadalı,
Ötüşə bilməzdi, çoxdu yaralı.
Rezakın ölümü sarsıtdı onu,
Müsməlman oğluydu, o Dağıstanlı.

Amuru sübh tezdən keçdi topçular.
Çində irəliyə getdilər onlar.
Orada çinlilər atəş açaraq,
Böyük müqavimət göstərirdilər.

Blaqosevə keçəndə onlar,
Gəmiyə yükləndi silahlar- toplar.
Ertəsi Ayquta getdilər onlar,
Xınqan dağlarına yetdilər onlar.





Burda Mehmandarov öz dəstəsiylə
Süvari polkuyla  birləşmişdilər.
Bütün batalyonda olan topçular.
Əliağa Şıxlinskiylə görüşmüşdülər.

Avqustun 3-də əmr gəldi ki,
Hərbi əməliyyata başlamaq gərək.
Meşənin  içiylə yolu keçərək,
Düşmənin yolunu bağlamaq gərək.

Döyüşə başladı, sübh tezdən onlar
Burda dörd mərtəbə səngərlər vardı.
Döyüş meydanında qorxuya düşən
Çinlilər silahı qoyub qaçırdı.

Bütün səngərləri atəşə tutub,
Şıxlinski dəstəsi irəliləyirdi.
Dağların başından  gur sədalarla
«Ura», «Ura» səsi hey yüksəlirdi.

Döyüş səngimişdi burda məbədlər
«Lyao-i-enin» heykəli vardı.
«Ku-anq-pinq», «Co-San»ın
böyük təsviri
Keçmiş nağılları xatırladırdı.

Döyüş dörd saata başa çatmışdı
Çinlilər silahı yerə atmışdı.
Döyüş meydanından onlar qaçanda
Silahlar-sursatlar yolda qalmışdı.

Ağır   silahlara  gücü çatmayan
Yollarda nə qədər  əsgər qalmışdı.
Dəstədən aralı  düşənləri də
Rusiya qoşunu əsir almışdı.

Ertəsi Merqenə çatdılar onlar
Şəhərdən qaçmışdı bütün insanlar.
Elə bil sahibin gözləyirdilər,
Qapısı açılmış dükan-bazarlar.





Mis pullar, zərgərlik  əşyaları da,
Uçub  dağılmamış dükanları da,
Sanki yox olmuşdu adamları da,
Şəhərdə səssizlik hökm sürürdü.

Qoyub qaçmışdılar, onlar topları
Əliağa toplara baxırdı bir-bir.
Hərbi sənədlərə nəzər yetirdi,
Ona  məlum oldu bütün hərbi sirr.

Hever çayından da keçəndə onlar
Çinli polkovniki  gördülər onlar.
Onun dəstəsində olan bayraqlar
Ağ rəngdə, təslimə işarə idi.

Çinli  yalvarır  ki, qaçanlar üçün
Meşədə ac-susuz qalanlar üçün
Bircə həftəliyə dayansanız siz,
Azuqə yığarıq qalanlar üçün.

Komandir söylədi:
-Yox belə olmaz.

Düşmənlə mülayim
davranmaq olmaz.
Azuqə adıyla silah alarsız
Toplardan bizlərə atəş açarsız.

Çinli polkovnikin
yalvarışına
Əhəmiyyət vermədi,
cənab  komandir.
Onda elədirsə söz ilə yox ki,
Yazılı surətdə raportla bildir.

Yazdığı kağızın üzərində də
Gözündə göz yaşı selə dönürdü.
Taqəti yox idi, dayana bilmir,
Polkovnik özü də sanki ölürdü.

Qan qoxulu müharibə
Çinliləri sarsıtmışdı.
Ölənlərin sayı çoxdu
Əsgərləri azalmışdı.





Mehmandarov, kazaklarla
İrəliyə gedirdilər.
Şıxlinskinin əsgərləri
Düşməni məhv edirdilər.
Tsipsikar şəhəri açıb qapısın
Sovet  əsgərinə təslim olmuşdu.
Əmrə tabe idi burada hər kəs
Əsgərlər heç nəyə toxunmamışdı.

Nonni çayındakı sağ sahillərdə
Çinlilər silahsız dolanırdılar.
Onları təlaşa salmaqdan ötrü
Başları üstündən  top atırdılar.

Mancurya- Monqolya, hüdudlarıyla
Davam eylədilər öz yollarına.
Yollar uzun idi, çaylar qovuşub,
Sunqara-Nonninin saf sularına.

***

1900-ün
sentyabr ayında
Tey-Tuna ən yaxın

Suan-Cen-Pu;
şəhərində insanlar
Maraqla baxdılar
Əliağa  Şıxlinskiyə.
Onun dəstəsini böyük hörmətlə
Çıxıb qarşısına salamladılar,
O böyük sərkərdə əskərləri ilə
Burada qaldılar bütün qış günü.
Əliağa Şıxlinski Vətən oğulu
Hərbə həsr eylədi, bütün ömrünü.

1901-in
Bahar-yaz aylarında
«Tala-Cao»-ya
getdi Əliağa
Bu çətin həm də ki
ağır yollarala
Yazda yola düşdü,
öz dəstəsiylə.
Yollar  buzlar ilə  örtülü idi.
Lyao-Xes çayının
Sanki suyu donmuşdu,





Dağ çayının  donması
Bir möcüzə olmuşdu.
Təbiətin sehrinə
Onlar şahid olmuşdu.
Buzla örtülü
çaydan
Topları keçirdilər.
Atları keçirdilər.
Mərmi arabasını
Çaydan keçirdi onlar.
Çətinliklə olsa da
Tala- Coydan keçdilər.
Rusiyadan onlara
Ərzaq da gətirdilər.
Atlara    arpa-yulaf
Təcili yetirdilər.
Əsgərlər atlarına
Yaxşı qulluq etdilər.
Atlar ac olduğundan
Doyunca da yedilər.
Mənzərəni seyr edən
Əsgərlər sevindilər.
Daha atlar toxdusa,

Uzaq yol qət edərlər,
Eniş-yoxuş yol nədir?
Dağ  yolu da gedərlər.
Bax beləcə əsgərlər
Dağ yoluyla getdilər.
Uzun yol qət  etdilər.

***

1903-ün
yanvar ayı onları
Zabaykaldan
Nerçinskə
qaytarmalı oldular.
Mehmandarov  əmrlə
Topçular məktəbində
Heyətə  daxil oldu.
Bu iki il ərzində
Şıxlinski heyətə
komandanlıq eylədi.
Aprelin əvvəlində
Çinliləri məğluba
Uğradan Şıxlinski
Qılınclı Stanislav
Ordenini qazandı.





Yenidən təlimlərə
Başladı Şıxlinski.
Uğurları özündə
Saxladı Şıxlinski.

Mərmilərdən, toplardan
İstifadə qaydasın,
Döyüşdə öz faydasın,
Öyrətdi Şıxlinski.
İki ildən sonra da
Mehmandarov qayıtdı.
Hərbi hissədə olan
Qaydalardan razıdı.

Elə həmin gündən də
Əliağaya inandı.
Bu dostluğun ünvanı
Səngərlərdən başlandı.
Səngərdə davam etdi…
Uzaq Şərqdə xidməti
Uğurla davam etdi…

Çin səfəri beləcə
Uğurla  sona yetdi.
Atanın arzuları
Beləcə davam etdi.
Oğlu general  kimi
Orduda xidmət etdi.

Onun alın yazısı
Belə yazılıb bəlkə.
Rus-yapon savaşında
Ayağa durdu ölkə.

***

1904-ün
Yanvar ayı olardı.
Əliağa əsgərlərlə
Təlimlərə  başladı.
Gecə yarı yaponlar
Port-Artur limanından
hücuma keçmişdilər.
Sibir atıcı polku
Hədəfi seçmişdilər.
Soyuq külək əsirdi,





Yağışın damcıları
Bıçaq kimi kəsirdi.
Vətənin sərhədini
Vətənin əsgərləri
Keşiyini çəkirdi.
Dalin şəhərində  o.
Döyüşə hazır olun!
Əmri verilən kimi.
Həyəcanı eşitdi.
Toplantıya Əliağa
Hamıdan tez yetişdi.

Komandalar birləşib
Hücuma keçməliydi.
Əsgərlər dayanmadan
 İrəli getməliydi.
Əliağanın dəstəsi
Mövqe yerində durdu.
Yapon öz qoşununa
Hücum əmrini  verdi.
Sibir piyada polku
Topları işə saldı.

Yaponun əsgərləri
Buna məəttəl qaldı.
Əliağa Şıxlinski
Əmr eylədi ucadan;
-Vurun, dağıdın, keçin
Onları ot tək biçin.
Düşməni məğlub edib,
Hədəf yerini seçin.
Atəş açılan kimi
Yaponlar təslim oldu.
Polkun səngərlərinə
Qaçıb gizlənib, doldu.
Necə də uğurludur,
Düşmənlər məğlub olur.
Şıxlinski öyünür,
Köksündə vuran ürək
Fərəh ilə döyünür.
Nanqalına yol alıb
Artura çatdı onlar.
Neçə gündür yuxusuz
Bir azca yatdı onlar.
May ayının 15-i





Dağlara çatdı onlar
Volçi Qori dağında
Səngər yaratdı onlar.
Burda savaş başladı
Gurladı mərmi, toplar.
Ölənlərin sayı çox
Var  idi yaralılar.
Hava isti olsa da
Soyuq sərt müharibənin
Özünün qanunu var.
Bu savaşda, davada
Kim udar, kim uduzar,
Kimi ölümdən qorxar.
Qəhrəmanlar ölümün
Gözlərinə dik baxar.
İgid, cəsur olanlar
Qələbə qazanarlar.
Düşmənin üzərində
«Cəngi» marşı çalarlar.
İgid kimi vuruşub,
Yaddaşlarda qalarlar.
Əliağa Şıxlinskini

Tanrı belə yaradıb,
Ona görə general
Adını da qazanıb.
Məğrur, mətin döyüşçü
General Şıxlinski
Əsgərləri dağların
Zirvəsinə qaldırdı.
Onlar topdan atəşi
Asanlıqla atırdı.
Mərmilərin səsindən
Yapon ordu əsgəri
Dayanmadan qaçırdı.
Top döyüşü başladı,
Başladı nə başladı.
18 topa yalnız
Cavab verdi Əliağa.
Düşmən atan qranat
Düşməmişdi o, dağa
Düşmənlər təngə gəlib,
Qaçdılar lap uzağa.
Qalaya  girmək əmri
Verilmişdi   həmin gün.





***

1904-ün
İyulun 17-si
başladı həmin gündən
Port-Artur mühasirəsi.
İrəlidə gedirdi

Şıxlinskinin
dəstəsi.
Burda səbr, təmkinlə
Döyüş taktikasını
Bilmək çox vacib idi.
Onun əsgərləri də
İgid, cəsur idilər.
Qızğın döyüş gedirdi,
Onlar irəlilədilər.
Qədim, köhnə qalaydı
Port-Artur qalası da
Əliağa çox inamla
Döyüşlərə girişdi.
Yalnız bir məqsədi var

Bu  qalanı tutmalı.
Avqustun altısında
burda neçə  komandir.
Yaralandı çox ağır.
Geri çəkilmək olmaz
Göydən mərmilər yağır.
Əliağa Şıxlinski
Atdığı top atəşin
Hər biri düz hədəfdir.
Vısokaya dağına
cənab general gedir.
Təcili bu dağlarda
Səngərlər qazın deyir.
Burda altı düymələr
Düşmənləri tez vurur.
Əliağa əmr verəndə
Onun topçu əsgəri
Yapon postunu vurur.
Sonra komanda verir;
-Birincilər irəli!
İkincilər irəli!
Hamı, hamı irəli!





Topun  zərbələrindən
Yerində ölənlər çox.
Sonra keçib oradan
Uqlevaya dağından
Topa tutub düşməni
Yerində məhv etdilər.
Müasir yapon topu
Susmuşdu göz önündə.
Gecə yarı düşmənlər
Yenidən hücum etdi.
Əliağa əmr edir;
- Rota atəş, açın siz!
Vzvod, atəş açın siz.
Düşmənlərin gözündə
Güllə kimi saçın siz!
Süngüləri düşmənin
Gözlərinə sancın siz!
Gecə keçsə də yenə
Döyüş davam edirdi.
Mərmi, toplar susmurdu,
Ay yuxuya gedirdi.
Göylərdən ulduzlar da

Onları seyr edirdi.
Yaponlar bir yerdə
toplaşıb orda
Silahı-sursatı hazırlayırdı.
Atəş açmaq üçün
Əmr etdi o an
Əliağa Şıxlinski
cənab general.
-Topun qapağını
Lülə içindən
Üfüq görünəcək
yerə tuşlayın.
Topları qaldırın
mərmilər dağın
başında ilişib
qalmasın deyə.
Atəş məsafəsi
təyin olundu.
Yapon əsgərini
məhv etmək üçün.
Yaylım atəşləri
uyğun olundu.





Açılan atəşdən
qorxan yaponlar
geriyə qaçmağa
məcbur oldular.
Beləcə atəşi davam  etdirən
Şıxlinski  nişangah
seçdi yenidən.
Yapon hücumları
dəf edildiyi
Bütün batalyonda
aşkar olundu.
Burada
Ruçyev rəsmi
Göstərib
söylədi;
- Cənab general
Sizin rəsminizi
Özüm çəkmişəm.
Özüm gətirmişəm
Sizə bu şəkli;
-Baxın  önünüzdə
yaponlar bir an

Dayana  bilmirlər,
Dura bilmirlər.
Onlar dayanmadan
Geri gedirlər.
Yapon meyidləri
Yollar doludur.
Torpaq da onları
durmadan  udur.
«Pravda» qəzeti
yazırdı onda
1939-da
«550 illik» yubiley anı
Təslim eyləyibdir
Bütün dünyanı.
Əhsən rus ordusu
Rus topçusuna.
Sevinib, şad olduq
uğurlarına
«Port-Artur» uğrunda
döyüşlərdə də
Düşmənə çox ağır
zərbə vurdular.





Yaponlar məğluba
uğradığına
nədənsə özləri
inanmırdılar.
General Şıxlinski
topçularının
sərrast atəşindən
düşmənlər susdu.
Beləcə özündən
razı düşməni
Əliağa Şıxlinski
gözündən vurdu.
Port-Artur qalası
müdafiəsində
Xüsusi şücaət
göstərmişdi o.
Qələbə bizimdir
Deyib Əliağa
Əsgərlər önündə
Söyləmişdi o.
Bütün döyüşlərdə
Uğur qazanıb.

«Qızıl Qılınc» ilə
mükafatlanıb.
Döyüş meydanında,
Hərb meydanında,
Seçdiyi peşədən
Çox ilhamlanıb.
Bu yolda dəyanət
göstərmişdi o.
Yeni ixtiranın
yenə də biri
Toplardan, qumbara
atmağın sirri
öyrətdi Əliağa
əsgərlərinə.
Topların birindən şranpel
atmaq
«Mürəkkəb atəşlər»
öyrətmişdi o.
Susdurdu düşmənin
hədəflərini,
Susdurdu düşmənin
həmlələrini,





Dağın zirvəsində
dayanan toplar,
Atəşlə geriyə
saldı düşməni.
Döyüşün ən qızğın
gərgin vaxtında
Gəldi Mehmandarov,
Gəldi Nadenin
Sıxaraq əlini
Şıxlınskinin
Döyüş tapşırığı
verdi yenidən.
Düşməni yenildin
Onu məhv edin.
Cəsur döyüşçülər,
İrəli gedin!

Səngərlər qazılır
Dağın döşündə.
Doldurub kisəyə
qara torpağı
Yastı tirlər kimi
düzdü sırayla.
Çoxlu kisələri

yığdılar onlar.
Kisənin üstünə
yığdılar daşlar.
Əgər ki, düşmənlər
qumbara atsa,
Daşların üstünə
dəyib partlasa,
Daha dərinlərə
keçməyəcəkdir.
Beləcə topların
yanında onlar
səngərlər qazdılar
yorulmadılar.
Toplardan düşmənə
Atəş açdılar.
Düşmən qəzəblənib
Atəş açaraq,
Yerləri, göyləri
Yandırırdılar.
Plemyot, tüfənglər
topun səsindən
Düşmən mərmiləri





vıyıldayırdı.
Toz duman  içində
qanlı savaşda
Topların səsindən
qulaq batırdı.
Düşmən önündəki
məğrur döyüşçü
Toplarla onları
Geri oturtdu.

Geriyə çəkilən
düşmən ordusu
Anbaan onlara
təslim olurdu.
Göstərdi rəşadət,
Hünər Əliağa.
Georgi Dumanın
qərarı ilə
Ordenlə, medalla
təltif olundu.
Bütün döyüşlərdə
cənab general

səngərdən- səngərə,
Uca boyuyla
Əyilib keçmirdi,
Düz yeriyirdi.
Görənlər həsədlə
baxırdı ona.
Xəyalda çoxları
çatırdı ona.
Onun əsgərləri
elə bilirdi
onlar da oxşayır
Cənab generala.
Nə mərmi,nə güllə
batmırdı ona.
Düşmənin hiyləsi
çatmırdı ona.
Onun əqidəsi
amalı safdı.
Ürəkdən sevdiyi
peşəyə çatdı.
Əgər peşəsinə
məhəbbət varsa,





Tanrı da
bunlara çox rəvac verər.
Soyuq qış günündə
Yaponlar yenə
Şərqdən başladılar
Atəş açmağa.
Yağırdı güllələr
başları üstdən
Leysan yağış kimi,
sərt dolu kimi.

Toplar guruldayır
Pulemyot dinir.
Güllələr gözünün
Önündən keçir.
Bu anda bir mərmi
düşüb partlayır.
Cənab generalın
dizi qanayır.
Ağrıyan dizinə
baxmır general.
Döyüşdən ayrılmır

cənab general.
Döyüş səngiyəndə
əməliyyatçün
Cərrahlar dizini
yarırlar onun.
Çıxarıb göstərir
ona qəlpəni
Beləcə sarıyıb
yaralarını
döyüşə qayıdır,
cənab general.

***

Port-Artur döyüşü
bir dastan kimi
Düşmüşdü dillərə
söylənilirdi.
Orada Noqının
oğlu  döyüşdə
ölərkən üstündə
qılınc olubdur.
Bu qılınc general Noqıdən ötrü
Ən əziz qiymətli





bir yadigardır.
Dayanıb əsgərlər
önündə Noqin.
kövrəlib söyləyə
bilməyir nitqin.
Məni duyan olsa
Anlayır yəqin;
-Əgər aranızda
Qılıncı görən,
götürən varsa da
Qaytarsın geri,
Sizə söz verirəm
Onun əvəzi,
Qiymətli hədiyyə
bəxşiş  olacaq.
Heç bir söz demədi
Karamşev özü,
Gətirib qaytardı
qılıncı geri.
Əvəzsiz yadigar
kimi öpərək
Söylədi; qəlbimdə

qılıncın yeri-
Döyüşdən aldığım
yaralarımın
Sağalmaz, əbədi  ağrısı
oldu.
Oğlumdan yadigar
Bu qızıl qılınc
Vəfasız dünyada
qalası oldu.
Öpüb gözü üstə qoydu
qılıncı
 Həyata ümidi  oldu
sonuncu.

****

1904- noyabrın 13-ü
Şərqdə uğursuzluqdan
 Hiddətlənən yaponlar,
Silah- sursat toplayıb
Qərbdən başladı onlar.
«Vısokaya qora»nı
 tutmaq  istəyirdilər.





Port-Artur körfəzini
tutmağa tələsirdilər.
Körfəzdə dayanmışdı
Rusiyanın ordusu,
Yaponlarınsa vardı
cəmi üç-dörd gəmisi.
Onların əlindəydi
dağların yüksəkliyi,
Elə burdan başladı
şiddətli vuruşmalar.
Bu döyüşdə ardıcıl
yaralanıb öldülər,
Neçə-neçə zabitlər…
neçə-neçə əsgərlər
Port-Artur qalasının
igid müdafiəçisi,
Butuzov da ömrünü
burada vurdu başa.
Əliağa Şıxlınski
dostunun itkisindən
qəhərlənib kövrəldi.
qüssə-qəmlə o dedi:

Sən köçürsən dünyadan
Qəlbimizdə sən yaşa,
Şərəfli zabit kimi
Ömrünü vurdun başa.
Qanlı müharibənin
qurbanları çox oldu.
Ağrı-acı, qüssə-qəm,
Ürəklərdə ox oldu.
Şəfqət bacısı kimi
qadınlar çalışdılar
xəstələrin  yanında
gecə-gündüz qaldılar.
Xoş, səmimi sözlərlə
xəstələrə baxdılar.
Orda acı çəkənin
ağrıları yox oldu.
Yaralanmış əsgərin
sağalanı çox oldu.

Noyabrın 23-ü
«Vısokaya Qora»nı
ələ keçirdi onlar.





Zirehli gəmisiylə
Essen öndə gedirdi.
Ölümün üzərinə
gülə-gülə gedirdi.
Mina ilə hücuma
keçmişdilər yaponlar,
Onun da gəmisini
Düşmənlər batırdılar.
Essen salamat qaldı,
Baltik flotunda o
Komandan  adın aldı.
Port-Artur savaşı
hərb əməliyyatı,
Dayandı həmin gün.
Komandan əmr edib,
Ucadan dedi:
Vətənə qayıtmaq
istəyən zabit
Yazılı surətdə
 qoy söz versin ki,
Savaşa son deyib,
sülhü seçəcək.

Kim razı olmasa
burada qalıb,
sıravi əsgər tək
xidmət edəcək.
Hərbi həkimlərin
yazdığı rəylə
Əliağa Şıxlınski
Vətənə döndü.
Dünyanın ən ağır döyüşlərində
İştirak eylədi,
gözüylə gördü.
Uzun bir yol gəldi
qatar ilə o
Böyük həvəs ilə
Geriyə döndü.
Uzaq bir səfərə
çıxdılar onlar,
Sinqapur,Seylondan
keçəndən sonra
Kolumb limanına
çatmışdı onlar.
Həmin gün





general, onun dostları
qonaq  evlərində
gecələdilər.
Sübh tezdən limandan
meyvələr alıb,
Sonra yollarına
davam etdilər.
Üzüb Hind okeanın
keçəndə gəmi,
Həzin meh əsirdi
billur suların,
Üstündə elə bil
rəsm çəkirdi.
Qırmızı dənizdə
xəfif küləklər
Hər kəsin könlünü
oxşayır sanki.
Süveyş kanalın
 keçəndən sonra
Port- Səid seyrinə
çıxdılar sanki.
Aralıq dənizi

arxada qaldı,
Çatdılar Dardanel
boğazına da,
Artıq İstanbulda
Aya-Sofiya
məbədi önündə
dayandı onlar.
Var idi orada
çoxlu minarə,
hündür saraylara
 baxırdı onlar.
Gəmi uzaqlaşır
bu gözəl yerdən
Ayrılmaq çətindir
Qara dənizdən.
Keçdilər  Odessa
sahillərinə,
İnsanlar onları
qarşılayırdı.
Onlar da  sevinib gülürdü,
hətta
Əl  verib onları salamlayırdı.





General- müfəttiş
knyaz Mixaylov
bütün zabitləri
qəbul eylədi.
Əliağa Şıxlınski
Peterburqda
Böyük Knyazlığa
qəbula getdi.
Xidmətin davamı
olaraq indi
Mancur ordusuna
getmək istədi.
Ağır döyüşlərdən
çıxdığı üçün
Odessa hərbi  alaylarında
Topçu briqadaya
təyin olundu.
Döyüşdən yenicə
qayıtdığından
Altı ay məzuniyyət
verdilər ona.
Döndü ata yurdu,

doğma kəndinə
Qurbanlar kəsildi,
bu gəlişinə.
Gəldi evlərinə,
qohum-əqrəba
doğmalar ay, oğul
evlən dedilər.
Qonşuda nə qədər
qızlar var idi,
Cavan generalı
qəlbən sevdilər.
Qızların gözləri yollarda qaldı.
Elçi gələn günü gözləyirdilər.
Qoca nənələrin söhbətlərindən
Nigarı sevdiyin eşidirdilər.

****

1906-cı il
fevral ayının biri
Topçu zabit məktəbin
heyətinə gəldi o,
Zabit Məktəbində,
Hərbi təlimdə





Uğurlar qazanıb
Təşəkkür aldı.
Hərbin sirlərini
dərindən bilən
Əliağa Şıxlınski
elmdə ucaldı.
Döyüş taktikası
uğuru üçün
«Üçbucaq» ixtira
etdi Əliağa.
Bütün komandirlər
əsgər, zabitlər
Eşidib gəldilər
həmin sorağa.
Hamı sual verib
ondan soruşur,
Topçular çox böyük
maraq doğurur.
Həmin «Üçbucağı»
kağız üstündə
böyük bir miqyasda
çəkib şərh etdi.

«İxtira» kitabı
çapdan çıxaraq,
Şəxsi heyətlərə paylanılırdı.
Döyüş meydanında tətbiq edilib,
«Şıxlınski üçbucağı» adlandırıldı.
Dünyaya yayıldı, yeni ixtira
Fransız  ordusu, hətta Avstriya
Nəşr edib, kitab tək paylayırdılar.

***

1907-ci ilin, payız ayında
Topçu briqadası
birləşməsinin
böyük komandiri
oldu Riqada.
Təlimə gələnlər
Əliağadan
Atəş məşqlərini
öyrənirdilər.
Topçu ixtisası
seçən zabitlər,
Bu hərbi peşəni
çox sevirdilər.





Şıxlınski elminə,
həm savadına,
Daha da yaxından
səy edirdilər.
Saysız uğurları
uğur dalınca,
Sanki dil açırdı
Onun könlündə.
Beləcə bir payız
çağında o, da
Xoşbəxtlik qazandı
sevən könlündə.
Qırx altı yaşında
Nigar adlı  xanımla
Tapdı sevgi payını.
Xoş oldu həyatında
Arzular qanadında,
Onlar xoşbəxt oldular.
***
Atlı-topçu dəstəyə
Rəhbər oldu Əliağa.
1910-un

Payız ayı olanda
Vladiqafqaz  səmtində
Topçu briqadasında
Birinci diviziyanın
Komandiri oldu o.
Bütün şəxsi heyətin
Ən sevimli ən yaxın,
Zabitlər sırasında,
Hamıya dost oldu o.
Rus topçu məktəbin
həm də böyük rəisi,
Təyin olunmuşdu o.
Fransa ordusu
topçu dvizion
Vzvod komandiri
mayor Laver də
bütün təlimlərdə
Şıxlınskidən
Öyrəndi çox şeylər,
çox sirlər hətta.
Laverin rəisi
Polkovnik Holle





Fransız hökumətin
heyətində o.
Hərbiyyə naziri
olmuşdu o, vaxt.
Təlim qurtarandan
sonra da Laver
Qiymətli material
sənəd toplayıb,
Apardı özüylə
Fransaya o,
Bütün bu yaxşılıq
üçün isə o,
Çox sağ ol söylədi
Əliağaya.
İttifaq yaradan
Fransız mayor
Qayıtdı Vətənə
iki ay sonra.

***

1912-ci ildə də
Böyük bir təlimdə-
hərbi təlimdə,

Əliağa ağıllı
zəkası ilə
Topçu manevrası
eylədi yenə.
«Şıxlınski formulu»-
Hərbi yenilik,
Uğurlar gətirdi
Şıxlinskiyə.
Tanrı səxavətin
əsirgəmədi,
İdeya yetirdi
Şıxlinskiyə.
Böyük generallar
söz tapa bilmir,
Bu sirri bir kimsə
aça da bilmir.
Durub ayaq üstə
Slesarenko
Sıxıb əllərini
təşəkkür etdi.
Sonra da ucadan
o belə dedi:





Ömrümdə görmədim
belə manevr,
Mən Sizdən öyrəndim
deyilsə də sirr.
Topçu generallar
adından Sizə
Uğurlar dilərəm,
böyük təşəkkür.
***
Onun uğurlarına
sevinənlər var idi.
Ona qibtə edənsə
bir general var idi.
Bir gün general –mayor
İvaşitsev təəccüblə,
Şıxlinskidən soruşur;
-Məndən yaşca
kiçiksən,
Mənim vəzifəm
kiçik.
Məndən böyük
rəissən.

Bəlkə bunun sirrini
Özün mənə deyəsən.
Ona cavab vermədən,
Məktəb nizamnaməsin
Yavaşca varaqlayır,
Oxuyub  İvaşitsevə,
Səbrlə başa salır.
Dərin xəyala dalan,
Rütbəcə böyük olan,
General  ki, anlayır.
Yox belə insanlarla
Zarafat etmək olmaz.
Şıxlınski zirvəsinə
Rahatca yetmək olmaz.
Şıxlinski qədər də
Hərbi qayda-qanunu
Asanca bilmək olmaz.
Canına qorxu düşən
İvaşitsev susmağın
qərarına gəlirdi.
Özü yaxşı duydu ki,
Əliağa Şıxlinskinin





Marağına gəlirdi.
Birdən sual versəydi,
Cavab verə bilərmi?
Savadımı yoxlasa
Görən mənə gülərmi?
Beləcə öz-özünə
Sualları verirdi,
Elə yazıqlaşmışdı
Boynunu da əyirdi.
Gözü qapıda qalıb,
Sanki onu həyətdə
kim isə gözləyirdi.
Peşiman olduğundan
gizlin gileylənirdi,
Yaman narahat idi
getmək də istəyirdi.
Ciddi görkəmdə olan
Şıxlinski də ona
Heç söz də deməyirdi.
İvaşitsev dayanıb,
Ayaq üstündə durub,
Dili də söz tutmayıb,

Dil-dodağı quruyub.
Özü-özünə deyir ki;
-Bir səhvdir eyləmişəm,
Bir də daha etmərəm.
Əliağa Şıxlinskiyə
Yersiz biz söz demərəm.
Şıxlinskinin işinə
Bir daha qarışmadı.
İçində kin var idi.
Beləcə barışmadı.
Şıxlinski qədər də
Elmlə çalışmadı.
Şıxlinski zirvəsinə
Heç gəlib də çatmadı.

***

İsti yay günlərində
Fransa ordusunun
Baş qərargah rəisi
General İssemus  Joffer
Şəxsi heyəti ilə
Rusiyaya gəldilər.
Məktəblə tanış olub,





Həyətində gəzdilər.
Zabitlərlə birlikdə
Dadlı yemək yedilər.
Böyük knyaz
Sergey də
Onlarla birgə idi.
Fransızlar bu zaman
-Səhra atışlarının
Açılması haqqında
Məsləhət istədilər.
Şıxlınski əmr eylədi;
-Topçular açıq dərsdə
Praktiki olaraq,
Öz təcrübələrini
Onlara göstərdilər.
Onlar Şıxlınskidən
Razı, məmnun idilər.
Onlar öz ordusunda
«Haubitsa» atışının
tətbiq etmək üsulun
Onlardan öyrəndilər.
«Batareya» atəşin

Öyrənildi burada.
Tətbiq eyləmək  ancaq
Olacaq Fransada.
Fransızlar döyüşdə
sol cinaha keçməyi,
maraqla öyrəndilər.
Manevrin sonunda
Təchizala tanışlıq
Marağında oldular.
Örtülü səngərlərin
içində də oldular.
Rabitənin sirrinə
Onlar   nail oldular.
Bu sistemdən çox məmnun
çox da razı oldular.
Manevrlər təlimlər,
Başa çatmışdı artıq.
Ziyafətə toplaşdı,
 Fransalı qonaqlar.
 Fransalı zabitin
 biri ayağa durdu,
Söz alıb söylədi ki,





Mənim adım
Verlendi;
- Siz icacə verin mən
Bu badəni qaldırım.
Əliağa Şıxlınski
Şərəfinə bu gün mən.
Xoş sözümü çatdırım
Bu məclisdə
şəxsən mən
Təəccüb edir Əliağa,
-Adımı hardan bildi?
Verlen cavab verdi ki,
- Fransada topçular
Sizi yaxşı tanıyır.
Sizdəki ideyalar
Bizə çoxdan tanışdır.
Sizdən öyrənmişik biz
«Şıxlınski üçbucağı»nı
Sizdən rica edirəm
Sağlam saxla canını.
Öz kəşfin, ideyanla
Mat qoymusan hamını.

Beləcə sağollaşıb
Onlar yola düşdülər .
Bir neçə il keçəndən
Peterburqa gəldilər.
Əliağa Şıxlınskiyə
«Fəxri legion» ordeni,
Medalını verdilər.
***
1913-də
General Sinitsin
istefa verdi.
Knyazın əmrilə
Qautinov bu işə
təyin edildi.
O, təəccüb eyləyib
israrla dedi:
-Bu böyük vəzifə
mənim deyildi.
Məsləhət bilərdim
Şıxlınski burda
Həmin vəzifəni
icra eyləsin.





Narahat olmayın
deyərək knyaz;
Sizə Şıxlınski
kömək edəcək.
Qautin nəfəsin
dərərək dedi;
Görüm ki, bu işə
o, nə deyəcək.
İcazə versəydiz
zəng eyləyərdim,
Mən də  öz fikirimi
ona deyərdim.
Knyaz razılaşdı
o, da danışdı,
Əliağa bu işə
tez razılaşdı.
Narahat olmayın
dost kimi sizə,
Hər zaman hər yerdə
kömək edərəm.
Dəstəyi asmamış
Qautin ona

Sizə milyon dəfə
sağ  ol deyərəm.
Sizin köməyiniz
olduğu yerdə
Yüksək vəzifədə
işlərəm mən də.
Knyaza bunları
mütləq deyərəm.
Həmin vəzifəyə
bu gün gedərəm.
Beləcə Qautin
təyin olundu,
Məktəbin rəhbəri
müdiri oldu.
Taktiki məşğələ
mühazirəyə
Gəlsə də Qautin
heç nə bilmirdi.
Çağırıb müavini
ona tapşırıq,
verəndən sonra da
çıxıb gedirdi.





Onun işlərini
Şıxlınski görür,
Özünün işiylə tən
yarı bölür.

***

1914-də
Komissiya var idi
Hərbi Məktəbdə.
Komissiya rəhbəri
general-qraf
Barantsev gəlmişdi
yoxlama üçün.
Məktəbin müdiri
təkidlə dedi;
Buranın sahibi
Şıxlınskidi.
Təəccüblə boylandı
general-qraf
Sizi tərif edir
sizin müdir də
Topçular, əsgərlər
zabitlərin də

Sizi bir ağızdan
tərif edirlər.
Bilmirəm nədir bu,
niyə edirlər?
Bəlkə fırıldaq var
mənə demirlər.
Şıxlınski çox ciddi
baxaraq ona
Hələlik tez olar
sizin suala,
Tələsib cavabın
verməyirəm mən
Hələ ki, burdasız
on gün ərzində
Şübhəniz əriyər
öz qəlbinizdə.
İndi  söylədiyin
fikirləri də
Açıq söyləyərsiz
burdan gedəndə.
Mənim iş rejimim
belədir bilin.





Sübh tezdən altıda
siz işə gəlin.
Sizə də bu gündən
at verəcəklər.
Mənim zabitlərim də
tez gələcəklər.
Qoşulub onlara
işə gələrsən,
Mənim kim olduğumu
onda bilərsən.
Saxla istehzanı
onda gülərsən.
Yaxşıca fikirləş
sən nə deyirsən?
Sözünün quluna
dönmüşdü qraf.
Özünə təklikdə
deyirdi əclaf.
Burnunu hər yerə
niyə soxursan?
Sonra da
Şıxlınskidən

belə qorxursan.
Günlərin sayırdı
belecə qraf.
Elə bil yuxudan
oyandı qraf.
Başına açmışdı
əyləncə qraf.
Özünü danladı
gedincə qraf.
Peşiman  olmuşdu
ölüncə qraf.
Nəhayət, gün gəldi
getməli oldu.
Şıxlınski önündə
baş əyərək o,
Sözün də düzünü
deməli oldu.
Dönüb üzr istədi
Şıxlınskidən,
Peşiman olmuşdu
dediklərindən.
Beləcə görüşüb





ayrıldı onlar.
Rastına çıxmadı
bir daha qraf.
Onları beləcə
ayırdı yollar.
****
Dünya müharibəsi
başlayan zaman,
Topçu məktəbində
iş tamam oldu.
Məktəbdə olduğu
müddət ərzində
İdeya yarandı
Şıxlınskidə.
Hərbi kitabları
nəşr etdirməli,
Ömrünü hərb elmə
həsr etdirməli.
Beləcə kitablar
çap olunurdu.
Hərbi hissələrə
paylanılırdı.
Əsgərlər, zabitlər

faydalanırdı.
Hamı bir ağızdan
Şıxlinskini
 Dərin  bir hörmətlə
Alqışlayırdı.
«Divizion miqyasda
topçu manevri»
kitabı tezliklə
çap olunmuşdu.
Hərbi məktəblərdə
topçu zabitlər
hər biri
kitabdan
faydalanmışdı.
Onun oxuduğu
mühazirələr
xülasə şəklində
çox yayılmışdı.
Bunun əvəzində
cənab general
Qızıl pul, mükafat,
tərif almışdı.





Məktəbdə dərc olan
məcmuələrdə
«Qoşunlar üstündən
top atışını»
oxuyub öyrətdi.
Şəxsi heyətə.
Onun təcrübəsi
dərindən-dərin.
Şıxlınski ideya və
fikirlərin;
- Piyada qoşunda
topçu zabitlər
Ondan öyrəndilər
çox təcrübələr
Yetişdi nə qədər
Şıxlınskilər.

***

Böyük ixtiralar
edən Əliağa,
Yeni bir üsulu
icad eylədi.
Praktik təlimdə

əsgərlərə o
İzah eyləyərək
belə söylədi;
-Topçu hissələrdə
piyadalarla
topçular bir yerdə
hücum etməli.
Tüfəng atəşindən
Uzaqdan vuran
Topçular heç zaman
görünməməli.
Müasir silahlar
həlakedici.
Topların atəşi
hər an birinci
Rus-Yapon davası
Şıxlınskinin
həyat təcrübəsi
olmuşdu o an.
Onun ixtirası
həm  ideyası
 Dünyanı bir anda





etmişdi heyran.

****

Döyüşlər zamanı
hazırlıq görən
əsgərlər hər zaman
öndə getməli.
Böyük savaşlara
yollanan hər kəs.
Praktik işləri
dərin bilməli.
Piyada qoşunlar
xəbərdar olub,
Topçular üçün də
yer hazırlamaq,
İrəli gedəndə
batareyalar
Atəş nöqtəsini
təyin etməli!
Döyüş əmrini
alandan sonra
Atəşlə, hücumla
öndə getməli.

Düşmən həmləsini
qıranda onlar,
Geriyə qaçarlar
qorxarlar onlar.
Beləcə hərb elmin
dərindən bilən
Şıxlınski kəşf etdi
çox ideyalar.
***
Dünya müharibəsi
başladığı gün…
1914-ün
18 iyulunda
Dünyanın ən ağır
sərt savaşında
Əliağa Şıxlınski
teleqram alır.
Sübh tezdən
Qvardiya Qoşunu
Qərargahında,
Qədim Peterburqda
olmalıydı o.





Hərbi qayda üzrə
saat altıda
Luqandan gəlmişdi
Peterburqa  o,
Baltik sahilinə
Qoşun yığmışdı-
Alman qoşunu.
Onların qarşısını
almağı isə
Əliağa Şıxlınskiyə
tapşırmışdılar.
Cənab generalı
elə həmin an
Topçuluq məktəbin
rəisi kimi
Komandan tərəfindən
əmr  aldı  o.
Müdafiə xəttinin
qeyd olunduğu,
Yerlərdən xəritə
verdilər ona.
Laxta, Fin körfəzi

şimal sahildən
keçərək Peterqof
Qranenbaymdan,
Krasnoye Selodan,
Qatçıvandan da,
keçib Peterburqdan
Varşavadan da
Yolları qət edir,
Uğurla keçir.
Əliağa Şıxlınski
döyüş zamanı
İstehkam qurdurur,
Səngər qazdırır.
Böyük təcrübəli
Zabitlərdən də
Polkovnik Lukyanov
kapitan Jakov
Oldu Sərəncamda
həmin o, anda.
Əliağa Şıxlınski
batalyonunda.
Sveaborq qalasın





müdafiəsinə
Əliağa Şıxlınski
əmrini aldı.
Döyüş tapşırığın
aldığı andan
Yollandı
Finlandiya
ölkəsinə o,
Müdafiə Xəttindən
İrəli keçib,
Sipərlər qurmağa
Yerləri seçdi.
Toplar xətt boyunca
Düzüldü orda.
Düşmən   təyyarəsin
ot kimi biçdi.
Böyük müqavimət
görən düşmənlər
Qorxudan geriyə
çəkilirdilər.

***

1918-də

Vətəninə qayıtdı…
Elə həmin zamanda
Müstəqil Azərbaycan
Cumhuriyyəti yarandı.
Vətənin keşiyində
Gecə-gündüz dayandı.
Vətənin dar günündə
O, getmədi uzağa.
Hərbi nazir müavini
Təyin oldu Əliağa.

***

Vətənin dar günləri
Başlamışdı həmin an,
Erməni daşnakları
Qaldırmışdılar üsyan.

Qazax, Gəncə, Göyçayda,
Şamaxıda, Ağsuda
Daşnaklar od vururdu
İnsanlara Qubada.

Salyanda, Neftçalada
Hər yan qərq oldu oda,
Qırğınlar törədildi
Bakıda, Qusarda da.





Od içində yanırdı
Azərbaycan torpağı,
Eldən elə yayıldı
Bu dəhşətin sorağı.

Xainlər göz dikmişdi
Cənnət diyar Vətənə
Acı xəbər çatmışdı
Qardaş türk əsgərinə.

Nuru Paşa özüylə
Çoxlu əsgər gətirdi.
Azərbaycan xalqının
Harayına yetirdi

Keçərək dağ çayların
Qazaxa çatdı onlar
Daşnakların başına
Topları atdı onlar.

Gəncədə gözləyirdi
Şıxlinski onları,
Vaxtında yetişmişdi
Xalqımızın dostları.

Qınından çıxarıb
Misri qılıncı

Koroğlu nərəsi
Çəkirdi onlar.

Böyük bir orduya
Tab gətirməyib
Qorxuya düşdülər
Xain daşnaklar.

Qardaş köməyinə
Öz qardaşıyla
Gəlmişdi həmin an
Ənvər Paşa da.

Bolşevik erməni
Daşnaklarına
Qana qan dedilər
Qanlı davada.

Azərbaycan uğrunda
Müqəddəs and içdilər.
Vətən candan əzizdi
Canlarından keçdilər.

Əbədi dostluğumuz
Düşmənləri məhv etdi
Xalqımın dar günündə
Türklər köməyə yetdi





Vətənimin başından
Qara bulud çəkildi.
Azərbaycan- Tükiyə
Qardaşdılar deyildi.

1918-in
dekabr günlərində
Artilleriya general-
leytenantı rütbəsi
Verildi Şıxlinskiyə.

Ən müqəddəs, şərəfli
Peşəsini sevirdi.
Vətən oğlu deyildi
Əliağa Şıxlınskiyə.
1920-ci il
Aprelin 27-i
Əliağa Şıxlinski
Hərbi nazir olmuşdu.
Azərbaycan xalqını
Vicdanla qorumuşdu.
Minalanmış körpünü

Dağıdanlar olmadı.

Bu istəkdə olanı
Yaxına da qoymadı.
Sovet hakimiyyətinin
Generallarından hətta
Əliağa qorxmadı.
Çoxuna məlum idi
Əliağanın soyadı,
Moskvada yerləşən
Səhra qərargahında
Vicdanla işləyirdi.
Hamı onu sevirdi
Onlar belə deyirdi:
-Fəxr edirik bizimlə
İşləyir aramızda
Artilleriya Allahı .
Əliağa Şıxlinski
Görülmüşdü  bu ada,
1921-in isti yay aylarında
Sovet Azərbaycanı,
Qoşun qərargahına





Göndərildi Əliağa.
Burda Hərb sahəsinin
Elmi Cəmiyyətində
Sədr müavini oldu,
Əliağa Şıxlinski.
Bacarıqlı zabit tək
Yüksək vəzifə üçün,
Yeni bir əmri oldu.
Sonra Qafqaz ordusu
Hərbi Şura yanında,
Hərbi Nəşriyyat üzrə
Kollegiya sədri oldu.
Mühüm vəzifələri
Yerinə yetirdi o,
Bədii yaradıcılıq
sahəsində Əliağa,
Dahi Səməd Vurğunun
Osman Sarıvəllinin
şeirlərin oxuyub,
Tərcümə də edirdi.
Kitab  kimi onları
Sonra nəşr etdirirdi.

Onun hərbi sahədə
Uğurları çox idi.
«Azərbaycan-rusca da
hərbi lüğəti» yazan
Cənab general idi.
Onun uğurlarına
Ürəkdən çox  sevinən
İgid oğullar idi.
Onun mükafatları
Fəxri fərmanlar idi.
Köksündə daşıdığı
Orden, medallar idi.
Şıxlinski yolunu
Seçənlər də var idi.
Bu amal, bu istəkdə
Böyük arzular idi.
Generalın adına
Romanlar da yazıldı.
Yazılan povestlərdən
Biri Qılman İlkinin
«Genaral» povestiydi.
Əsərin qəhrəmanı





Əliağa Şıxlinskiydi.
Onun həyat yolları
Hər kəsə örnək oldu.
Artilleriya   yolunda
Əliağa tək oldu.
1924-də
Hərbi Məktəbdə o,
Rəis müavini oldu.
Bu şərəfli peşə də
Ona işıqlı yoldu.
Müharibə meydanı
Atəş, alov içində.
Yaralılar var idi
Tədris binalarında.
Kazarmalarında da
Yaralılar yatırdı,
Yaralı əsgərlərin
Yarasını həkimlər
Burdaca sarıyırdı.
Qadınlar komitəsin
Yaratdı Nigar xanım.
Xeyriyyə məqsədilə

Qadınları bir yerə
Topladı Nigar xanım.
Yaralı əsgərlərə
Yardım eylədi onlar.
Xəstələrin dərdini
Səbrlə, təmkin ilə
Dinləyirdi qadınlar.
Müharibə olmasın
Söyləyirdi qadınlar.
Nigar xanım işini
Ürəyincə sevirdi.
Əsgərlərin hamısı
Ona ana deyirdi.
Onların söhbətini
Ana tək dinləyirdi.
Evdən xörək bişirib,
Onlara gətirirdi.
Yaralanan əsgərlər
Ananın qayğısından
Uşaq tək sevinirdi.
Könüllülər dəstəsi
Yaradılan günündən





Zabitlərin xanımı
Qayğı ilə  onlara
 Hər gün kömək edirdi.
Hərdən söhbət düşəndə
Burda həkimlərə o,
Şıxlinski haqqında
Xoş sözləri deyərdi.
Hamı onun adına
Dərin hörmət edərdi.
Nigar xanım sevinib
Onunla fəxr edərdi.

***

Döyüşlər zamanı
cəsarət, hünər
İrəli! Tankçılar
topçu dəstələr!
Dairəsi çox geniş
olur topçunun
Məsuliyyət, intizam
işidir onun.
Önündə gedirdi
bütün ordunun.

Döyüşdə piyada
həm süvarilər,
Onlar irəlidə
öndə gedirlər.
Taktiki işlərə
nəzarət edən
Dəstənin rəisi
öndə getməli.
Döyüşlər zamanı
hər bir əsgəri
Doğması, yaxını
özü, bilməli.
Övladı yox idi,
Şıxlinskinin,
Kursantlar, əsgərlər doğmaydı ona.
Nigar xanım isə düşünürdü ki,
Bütün əsgərlərə anaydı,  ana.
Tiflisdə gəlmişdi
Nigar dünyaya,
Dünya müharibəsi
qisməti oldu.





İlk Ali təhsilli
qadındı Nigar,
Şərqə günəş kimi
yayıldı,Nigar.
İnstitut bitirdi;
qızıl medalla
Elmin işığına
qarışdı, Nigar,
Rus dili, fransız
ərəb, fars dilin
Mükəmməl öyrəndi
danışdı, Nigar.
Bütün varlığıyla
elmin yolunda
Oxumaq uğrunda
çalışdı, Nigar.
Pəhləvan cüssəli general ilə
Həyatın xoş anı
qovuşdu Nigar.
Zabit xanımıydı
bəxtəvər idi.
Qeyrətli, şəfqətli

hünərvər idi.
Evdə də, işdə də
bu gözəl xanım
Xeyirxah,
cəngavər, sülhsevər idi.
Yaramış xeyriyyə
cəmiyyətində
Seçdilər Nigarı
komitə  sədri.
Mülayim təbiət,
varıydı səbri.
Yüzlərlə yaralı
olan əsgəri,
Ölüm caynağından
qurtardı Nigar.
Savaşa son qoyun
deyən analar.
Adından yazılar
yazardı Nigar.
Yetim uşaqların
tək qalanların
Hər zaman könlünü





alardı Nigar.

Yaxşılıq eyləyib
könüllərdə o,
Yaxşı insan kimi
qalardı Nigar.
İnsan taleyindən
nigaran idi.
Rahatlıq bilmədi,
Dinclik görmədi,

Yuxudan yarımçıq
durardı Nigar.
Əliağa döyüşdə
olan zamanı
Narahat, nigaran
olardı Nigar.

Yaralı əsgərlər can verən zaman
Gül tək saralardı, solardı Nigar.
Ölən əsgərlərin məzarı üstə
Kövrəlib dolardı, ağlardı,  Nigar.

Cəbhədən məktublar yazılan zaman
Əsgər məktubları yollardı, Nigar.
Naməlum əsgərin şəkillərini
Özünün evində saxlardı, Nigar.
Sanki övladıydı, bütün oğullar
Qayğıyla, diqqətlə baxardı, Nigar.

Üzündə təbəssüm, özü xeyirxah
Təbiət qızıydı bahardı, Nigar.

Əliağa döyünən ürəyi idi,
Həyatda vəfalı bir yardı, Nigar.

Əliağa ömür-gün yoldaşı idi,
Özünü bəxbəvər sanardı, Nigar

Vuruşan, döyüşən əsgərlərə o,
Bir ana kimi də yanardı,Nigar.

Şəfqət bacısıydı keşik çəkərdi,
Yorulub yuxusuz qalardı, Nigar.





Hər kəsin dərdinə şərik olardı,
Özünün dərdini danardı, Nigar.

Eldən-obadan da ayrı düşmüşdü
Xəyal qanadında uçardı, Nigar.

Bütün varlığıyla xəyalən gəlib,
Öz ata yurduna çatardı, Nigar.

Uşaqlıq illərin  xatirəsində
Cavanlıq ömrünü saxlardı, Nigar.

Könlündə yurd salan kədərlə-qəmlə,
Xəyalən baş-başa qalardı, Nigar.

Ümidi, varlığı Əliağa idi
Yarından güc-qüvvət alardı, Nigar.

Dünyanın bəxtəvər qadını idi,
Özünü ən xoşbəxt sanardı, Nigar.

Nəhayət ay gəldi, illər  həsrəti,
Ümidi özünə qaytardı, Nigar.

Həyat  yoldaşıyla Vətənə dönüb
Qatarla Bakıya gəlmişdi Nigar.

Vətənə, yurduna qovuşduğu an
Torpağın qoxusun sevmişdi Nigar.

Yad, qərib ellərdə soyuq səngərdə
Köksünə xəstəlik yığmışdı, Nigar.

Ağrılar canına elə hopmuşdu
Nə vaxt öləcəyin demişdi, Nigar.

Əcəli qapını döydüyü günü
Ölümün gəldiyin bilmişdi, Nigar.

Tutub əllərindən son nəfəsində
Yarından halallıq almışdı, Nigar.





Canını tapşırıb, qara torpağa,
Yarından intizar qalmışdı, Nigar.

Son nəfəs, son anda gələndə dilə,
Yarından nigaran qalmışdı yenə.
Belə söyləmişdi, Şıxlinskiyə
Öləndə yanımda
dəfn olunsan sən
Yerimi cənnətdə
özün görərsən.
Əbədi ayrılıq, ayırdı onu,
Beləcə yetişdi ömrünün sonu.

Hər cümə Əliağa onun qəbrini
Ziyarət eyləyib dua oxudur.
İşıqlı dünyada tənha qalıbdır,
Nigar vəfat edib, kimsəsi yoxdur.

Uzun gecələrdə Nigarın ruhu
Dolanır Əliağa oturan yerdə
Tənhalıq nə yaman ağırdı ona
Qoca gerenalı salmışdı dərdə.

Girib yuxusuna Nigar bu axşam
Yandırıb mənzildə neçə cürə şam.
Deyir: - gələcəkdir bu gün Əliağam
Dünyadan köçsəm də bunu bilin ki,
Cismani ölmüşəm, ruhən mən sağam.
Xəyala qərq olub, Əliağa yenə
Gözündə göz yaşı dönsə də selə,
Heç kimdən ağırlıq ummayır belə.
Xəstəlik baxmayıb igidə-mərdə
Qocalıb general taqəti yoxdur,
Düşübdür çarəsiz, sağalmaz dərdə.
Ömrünün sonunda
tək qalmışdı o.
Qulağı eşitmir
gözləri görmür.
Nigar da köçmüşdü
dünyadan vaxtsız,
Sevinci, qəmini o, daha
bölmür.
Dönür xəyallara
ötən illərə,





Ömrünə yazılan müharibələrə,
Xəyalən bir anlıq əmr eyləyir o.
Keçmiş topçulara hər bir əsgərə.
Atın cilovundan yapışıb bərk-bərk
Döyüş meydanından baxır səngərə.
Bəzəyib zər qumaş, qızıl-gümüşə
Bəlkə də yol gedir, bu gün görüşə,
Sinəsi söz ilə doludur onun,
Yaşayır general ömrünün sonun.
İstəyir Nigarla bir az bölüşə,
Söz tapa bilməyir nədən bu işə.
Xəyal qanadında dönüb, keçmişə…
Həyatda hər şeyə nail oldusa
Oğulu-qızı da olmadı onun…
Nigarla nə qədər xoşbəxt oldusa,
Könlünə səadət dolmadı onu
Tarix yaddaşında ad da qoydusa,
Evində bir oğul, bir qız yoxdusa...
İnsan bar ağacı-
barı yoxdusa,
Ürəkdə qalmışdı
çox arzuları.

Özünə verirdi
çox sualları,
Olsaydı övladı
gələrdi onun
bu günkü günündən
xəbər tutardı.
Olsaydı nəvəsi bəlkə də
bu gün
Onunla bu evdə birgə olardı.
Gəncliyi savaşda
davada keçdi,
Özünə mənzil tək
səngəri seçdi.
At çapan, top atan
general hətta,
Enişli-yoxuşlu yolları keçdi.
Vətən torpağında
Vətən tək bitdi,
Gecə də, gündüz də
o, keşik çəkdi.
Vətəni canından o, artıq sevdi.
Bilməyib, bahar nə





yay nə deməkdir,
Ömrünə sərt-soyuq
ayları seçdi.
Qışın qış fəsili
ömür yolunda
Soyuqlu-şaxtalı
qarları seçdi.
Ürəyi saf idi,
su kimi təmiz,
Dağlardan gur axan
çayları seçdi.
Hələ uşaq ikən
Dəli Kürdən o,
Sel gələn anlarda
Sel- suyu içdi.
Bəlkə ona görə
bu qədər çətin
həyat burulğanı
boğmayıb onu.
Bəlkə Yəmən xanım
onu oğul tək
adi insan kimi

doğmayıb onu.
Onu polad kimi
tunc kimi  doğub.
Allah pənahına
yollayıb onu.
Əsgər libasında, hərbi mundirdə
Vətənə oğul tək
yollayıb onu.
Bəlkə ona görə
hərb tarixində
«Artilleriya Allahı»
dedilər ona.
Bu adlar, hörmətlər
dünyada onun
Adını əbədi
qoruyub, saxlar.
Əliağa Şıxlinski
Hərb  tarixində
Əbədi yaşayar
Əbədi qalar.





Vətənin  uğrunda
andı içəndə,
Vətənin uğrunda
öndə gedəndə ,
Vətən oğul dedi
ona hər zaman
Əliağa Vətəni
qəlbdən sevəndə.
Barı da, bəhri də
Onun ömrü də.
Vətənə can dedi
Onun özü də.
Dilində
Vətən tək
Bitdi sözü də.
Əliağa ömrünü sətirlər üstə,
Hərbi gündəliyə yazırdı hər gün.
Döyüşdə qazanan qələbəsiylə
Düşmənə qəbiri qazırdı hər gün.
Vətənə, anaya o, öz yarına
Hər zaman vəfalı insan olmuşdu.

Bir sevgi tacıydı öz Nigarına
Hər kəs bu sevgiyə heyran olmuşdu.

Ömrün bahar çağı
cavan yaşında
Savaşdan, döyüşdən
alovdan keçdi.
Vətən sevgisiylə
Vətəni sevdi.
Vətənə sədaqət
andını içdi.
Əbədi dünyadan
əbədi sevgi,
Əbədi məhəbbət
qazanmaq özü.
Hər kəsin nəsibi
olmayır bilin.
Vətəni Vətən tək
ana tək sevin.
Oxucum! Bu insan
Cənab general.
Qanlı savaşlardan





salamat dönüb.
Çox çətin, çox ağır
əziyyət görüb,
Ömrünə ən gərgin
sınaqlar hörüb.
Bəlkə ona görə
Vətən sevgisi
Canına-qanına
qəlbinə hopub.
Hərb elmi, tarixi
haqqında hətta
Nə qədər kitablar,
əsərlər yazıb.
Bir sözlə canını
Vətən yolunda,
Vətən keşiyinə
həsr eyləyib  o.
Dənizdən-dənizə
keçibdi hətta,
Dünyanı səyahət
eyləyibdi o.
Rahatlıq bilməyib

ömür yolunda,
Əyləncə, məcara,
sevməyibdi o.
Ömür qatar kimi
necə keçibsə,
Gəncliyin ötdüyün
bilməyibdi o.
Nigardan savayı
başqa qadını
Vicdanı pak olub
sevməyibdi o.
Kiminin əvvəli,
kiminin  sonu,
Yaxşı söyləyibdir,
ulu babalar.
Yox deyə bilmərəm
ömrünə hədər,
Tarix yaradıbdır
dünyalar qədər.
1929-da
Altmış dörd yaşında
İstefaya çıxmışdı.





Əliağa Şıxlinski.
Orden, medallar ilə
Təltif olunmuşdu o.
Fransanın ən yüksək
Medalını almışdı.
«Artilleriya Allahı»
Adı ilə Əliağa,
Dünyaya səs salmışdı.
Onu tanıyanlar
tanıyır hətta,
Gələcək nəsillər
onun haqqında,
Eşidib biləcək
Əliağa adda
General yaşayıb
olub həyatda.

***

Qəbrini ziyarət
etdiyim zaman
Başımda dolanır
min bir fikirlər.
Ağrıdır, ağrıdır

göynədir məni
Gül kimi solubdur
qoşa qəbirlər.
Yaşadın, yaşadın
onu cavanlar,
Qəbrini qızıldan
tuncdan yaradın.
Qəlblərə əbədi
həkk eyləyin Siz.
General Əliağa
Şıxlinski adın.
Gələcək nəsillər,
Saf məhəbbətlə
Adını zirvəyə
göyə ucaldın.
O, bizim millətin
hərb tarixidir.
O, bizim millətin
hərb arxividir.
Axtarın, arayın
«Xatirələrim»
Onun gündəliyi





ömür yoludur.
Həyat dərsi kimi
zəngin, doludur.
Bu insan nə qədər
mənəvi zəngin.
Bu insan ay kimi
əngin olmuşdur.
Bu insan Vətənin
yolları boyda
Vətən xəritəsi
yaradıb hətta.
Mən Vətən qızıyam,
Vətən əsgəri.
Vətənin oğluna
Vətənim boyda,
Döyünən köksümdə
heykəl qurmuşam.
Ömrümü hərbiyə
həsr etdiyimdən.
Vətənə əbədi vətəndaş olub,
Vətən keşiyində
əsgər olmuşam.

Vətənə o,  qədər
borcumuz var ki;-
Vətənin borcundan
çıxa bilmərik.
Vurğun söyləmişdi:
öz  misrasında:
«Biz gəldi gedərik
sən yaşa dünya»
Bəlkə Yəmən ana
oğul payını,
Əmanət eyləyib,
ulu tanrıya,
Ən çətin, şərəfli
hərbi peşədə
Tanrı dayaq olub,
Əliağaya.

****

Sirlə dolu olan dünyanın özü
Hər kəsə qoynunda yer verməyibdir.
Dolub, boşalıbdır, dünyanın gözü
Kimsəyə heç zaman sirr  verməyibdir.
Dünyanı yaradan





yaşadanları
Var olsun əbədi
dünyamız kimi.
Nə yaxşı Əliağa
Şıxlinskini
Yaradıb, yaşadıb
əbədi dünya.
Vətənə həsr olan
general ömrünü
Yaşadır əsrlər,
zamanlar hətta.
Müqəddəs borc bilib
mən onun haqda
Vətən sevgisiylə
əsər yazmışam.
Mən elə bilirəm
onunla birgə
Tarix yaddaşında
mən də qalmışam.
Əliağa Şıxlinski
adına hörmət,
Ömür yollarından

ilham almışam.
Haqqında yazdığım
bu əsəri mən.
«Artilleriyanın Allahı»
adlandırmışam.

2016



Port Artur döyüşü. Rəssam Əmirxan Nuar

Dizayner: Samirə Muradova
Korrektor: Qubaxanım Bayramova

Yığılmağa verilmiş: 17.02.2016
Çapa imzalanmışdır:28.03.2016
Şərti çap vərəqi:17
Format: 60X84 1/8
Tiraj:300

Kitab "ORXAN" Nəşriyyat və Poliqrafiya müəssisəsinin mətbəəsində hazır diopozitivlərdən istifadə olunmaqla ofset üsulu ilə çap edilmişdir.

Ünvan: Bakı şəhəri, Dərnəgül qəsəbəsi,
3105-ci məhəllə
Direktor: Cəfər Bağırov
Tel: 562-83-03